# MƏHKƏMƏ EKSPERTİZASI ÜZRƏ QİYMƏTLƏNDİRİCİNİN İŞİ

**Qərardadın alınmasından məhkəmədə rəyin müdafiəsinədək - bütün mərhələlər**

*Azərbaycan Qiymətləndiricilər Palatası · Peşəkar təlim materialı · Bakı 2026*

# Təlimin quruluşu

| Modul | Mövzu | Mərhələ |
|---|---|---|
| I | Hüquqi çərçivə və ekspertin statusu | Hazırlıq |
| II | Qərardadın təhlili və sualların oxunması | 1-ci mərhələ |
| III | Səlahiyyət, imtina və maraqlar münaqişəsi | 2-ci mərhələ |
| IV | Məhkəməyə vəsatət və sorğu | 3-cü mərhələ |
| V | Obyektə baxış, tərəflərin iştirakı ilə | 4-cü mərhələ |
| VI | Baxış aktının tərtibi | 5-ci mərhələ |
| VII | Metodologiyanın seçimi | 6-cı mərhələ |
| VIII | Rəyin strukturu və formatı | 7-ci mərhələ |
| IX | Məhkəməyə təqdimat | 8-ci mərhələ |
| X | Məhkəmədə rəyin müdafiəsi | 9-cu mərhələ |
| XI | Əlavə və təkrar ekspertiza | 10-cu mərhələ |
| XII | Tipik səhvlər - real işlərdən | Yekun |

# Nə üçün bu təlim lazımdır?

1. Məhkəmə ekspertizası qiymətləndiricinin ən yüksək risk daşıyan fəaliyyət sahəsidir
2. Adi hesabatdan fərqli olaraq rəy çarpaz sorğuya, etiraza və təkrar ekspertizaya məruz qalır
3. Rəyin əsassızlığı yalnız peşəkar deyil, cinayət məsuliyyəti doğura bilər - CM 297
4. Palataya daxil olan şikayətlərin əhəmiyyətli hissəsi məhkəmə işləri üzrədir
5. Ən çox rast gəlinən problem metodologiyada deyil, prosedurda və sənədləşdirmədədir.

**Bu təlim metodologiya dərsi deyil. O, məhkəmə prosesində ekspertin davranışı, sənəd axını və müdafiə strategiyası barədədir.**

# Hüquqi çərçivə və ekspertin statusu

**Ekspert kimdir, kimə hesabat verir, nəyə görə məsuliyyət daşıyır**

# Üç fərqli status qarışdırılmamalıdır

| Status | Kim təyin edir | Kimə hesabat verir | Məsuliyyət |
|---|---|---|---|
| Məhkəmə eksperti | Məhkəmə qərardadı ilə | Məhkəməyə | CM 297 - cinayət |
| Mütəxəssis | Məhkəmə və ya tərəf | Cəlb edən tərəfə | Peşəkar |
| Tərəfin qiymətləndiricisi | Tərəf müqavilə ilə | Sifarişçiyə | Müqavilə və peşəkar |

Ən çox rast gəlinən səhv hansıdır? Məhkəmə tərəfindən təyin edilmiş ekspertin adi qiymətləndirmə hesabatı formasında sənəd hazırlaması. Bu halda sifarişçi kimi məhkəmə göstərilir, lakin sənəddə «sifarişçinin razılığı olmadan açıqlanmır» kimi şərtlər qalır.

# Üç fərqli status qarışdırılmamalıdır

1. **QİYMƏTLƏNDİRİCİ** - «Qiymətləndirmə fəaliyyəti haqqında» Qanunun 1.1.2-ci maddəsi qiymətləndiricini belə müəyyən edir: bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən, qiymətləndirmə fəaliyyətini həyata keçirmək hüququnu əldə edən və Qiymətləndiricilər Palatasının üzvü olan fiziki şəxs.

Üç cəlbetmə əsası var:

(a) Müqavilə ilə m. 9.1. Sifarişçi ilə yazılı müqavilə.

(b) Məhkəmə və ya inzibati orqanın qərarı ilə m. 9.2. Bu, açar müddəadır: Qanunla müəyyən edilən hallarda qiymətləndirmə məhkəmənin və ya inzibati orqanın qiymətləndirmənin təyin olunması haqqında qərarı və icra məmurunun sifarişi əsasında da aparıla bilər. Qiymətləndirməni təyin (sifariş) edən orqan və ya vəzifəli şəxs qiymətləndiricini bu Qanunun tələblərinə uyğun olaraq qiymətləndirmə obyektinin mülkiyyətçisi ilə razılaşdırmaqla seçir. Belə razılıq əldə olunmazsa, qiymətləndirici Qiymətləndiricilər Palatası tərəfindən müəyyən edilir.

(c) Məcburi qiymətləndirmə m. 8.1, o cümlədən qanunda və ya məhkəmə qərarı ilə nəzərdə tutulmuş digər hallarda.

Məhsul: m. 10 üzrə Hesabat iki nüsxədə tərtib edilir, bir nüsxəsi sifarişçiyə verilir, ikinci nüsxəsi isə qiymətləndiricidə saxlanılır.

Məsuliyyət: intizam (m. 22), mülki (m. 23).

2. **EKSPERT** - Mülki Prosessual Məcəllə, maddə 63

Xüsusi biliyə malik olan, bu Məcəllədə nəzərdə tutulmuş hallarda rəy verməsi zəruri hesab edilən, məhkəmə tərəfindən təyin edilən və ya işdə iştirak edən şəxslərlə ekspertizanın aparılması barədə müqavilə bağlamış şəxs məhkəmədə ekspert qismində çıxış edə bilər.

Vəzifələr m.63.2: Ekspertizanın aparılması tapşırılan şəxs məhkəmənin çağırışı üzrə gəlməyə və qarşısına qoyulan suallar barədə obyektiv rəy verməyə borcludur. Ekspert onun üzərinə qoyulan vəzifəni yerinə yetirmək üçün zəruri biliyə malik olmadıqda, rəy verməkdən imtina etməlidir.

Hüquqlar m.63.3: iş materialları ilə tanış olmaq, məhkəmə iclaslarında iştirak etmək, suallar vermək, əlavə materialların təqdim edilməsini məhkəmədən xahiş etmək.

Məsuliyyət m.63.4: Ekspert bilə-bilə yalan rəy verməyə görə və ya rəy verməkdən imtina etməyə görə cinayət məsuliyyəti daşıyır.

Məhsul: Rəy - hesabat deyil.

# Üç fərqli status qarışdırılmamalıdır

Həlledici fərq - məhkəmənin iki fərqli aktı. Bu, ən çox qarışdırılan məqamdır. Məhkəmə iki fərqli şey təyin edə bilər:

| | **Qiymətləndirmənin təyini** | **Ekspertizanın təyini** |
|---|---|---|
| Əsas | Qanun, m. 9.2 | MPM, m. 63 |
| Status | qiymətləndirici | ekspert |
| Seçim qaydası | mülkiyyətçi ilə razılaşdırmaqla; razılıq olmazsa Palata müəyyən edir | məhkəmə təyin edir |
| Məhsul | Hesabat (m. 10) | Rəy |
| Sual formatı | Yoxdur, dəyər müəyyən edilir | məhkəmənin sualları |
| CM üzrə məsuliyyət | yoxdur | Var, MPM 63.4 |
| Məhkəməyə gəlmək | öhdəlik deyil | Borcludur, 63.2 |
| İmtina | m. 12.1.5, 12.1.6 | zəruri bilik olmadıqda borcludur |

# Üç fərqli status qarışdırılmamalıdır

Praktik ayırıcı, qərardadın mətnini diqqətlə oxumaq.

| Əlamətdə nə yazılıb | Status |
|---|---|
| «ekspertizanın təyin edilməsi» | ekspert |
| «qiymətləndirmənin təyin edilməsi» | qiymətləndirici |
| «Ekspert qarşısında suallar qoyulsun» | ekspert |
| «CM-in 297-ci maddəsi üzrə xəbərdar edilsin» | ekspert |
| «mülkiyyətçi ilə razılaşdırmaqla seçilsin» | qiymətləndirici (m. 9.2) |

Dördüncü status da var:
MPM m. 64 - mütəxəssis. Məhkəməyə texniki kömək göstərir, rəy vermir, cinayət məsuliyyəti daşımır. Həmçinin 63.1-in ikinci variantı - tərəf özü ekspertlə müqavilə bağlaya bilər. Bu halda şəxs ekspertdir, lakin təyinat mənbəyi fərqlidir.

# Ekspertin əsas öhdəliyi

## ADİ QİYMƏTLƏNDİRMƏDƏ

- Sifarişçi - sərəncam verən tərəfdir
- Hesabat sifarişçinin mülkiyyətidir
- Məxfilik sifarişçi qarşısında
- Nəticə sifarişçiyə təqdim edilir
- İstifadə məhdudiyyəti qoyula bilər
- Haqq müqavilə ilə

## MƏHKƏMƏ EKSPERTİZASINDA

- Məhkəmə - təyin edən orqandır
- Rəy iş materiallarının hissəsidir
- Məxfilik iş sirri rejimindədir
- Rəy məhkəməyə təqdim edilir
- Tərəflər rəylə tanış olmaq hüququna malikdir
- Haqq məhkəmə tərəfindən müəyyən edilir

# CM 297 nə deməkdir?

- Qərardadda ekspertin qəsdən yalan rəy verməyə görə məsuliyyət barədə xəbərdar edilməsi göstərilir
- Xəbərdarlıq rəydə əks olunmalı və ekspert tərəfindən imzalanmalidir
- İmza olmadan rəy prosessual qüsurludur və bu, ən çox təkrarlanan formal səhvdir
- Qəsd əlaməti vacibdir. Səhv hesablama qəsd deyil, gizlədilmiş məlumat isə ola bilər
- Ekspert bilmədiyi məsələdə rəy verməkdən imtina etməlidir, Bu, onun hüququdur

**Praktik qayda: rəyin birinci səhifəsində xəbərdarlıq mətni və ekspertin imzası olmalıdır. Bu, rəyin qəbul edilməsinin formal şərtidir.**

II

# Qərardadın təhlili

Sualın oxunması işin ən vacib mərhələsidir

# Qərardadda nə axtarılır?

| № | Element | Nə üçün |
|---|---|---|
| 1 | İşin nömrəsi və tarixi | Rəyin rekvizitlərində göstərilir |
| 2 | Tərəflərin adları | Maraqlar münaqişəsi yoxlaması üçün |
| 3 | Ekspertizanın növü | Qiymətləndirmə, tikinti-texniki, mühasibat |
| 4 | Suallarin dəqiq mətni | Rəydə hərfi ilə təkrarlanır |
| 5 | Obyektin identifikasiyası | Sahə, ünvan, rekvizitlər |
| 6 | Qiymətləndirmə tarixi | Qərardadda göstərilməyibsə sorğu edilir |
| 7 | Ekspertizanın müddəti | Uzadılma vəsatəti üçün |
| 8 | CM 297 xəbərdarlığı | Rəydə əks olunur |
| 9 | Əlavə məsələlərin ekspertin öhdəsinə buraxılması | Sorğu hüquqü verir |

# Sualların təsnifatı, birinci addım

- Hər sual qiymətləndirmə suali deyil. Bəzi suallar fakt müəyyən etmə, bəziləri hüquqi qiymətləndirmə tələb edir
- Nümunə: «2008-ci ildən bu günə qədər çəkilmiş aqrotexniki xərclər nə qədərdir?». Bu, keçmiş xərcin müəyyən edilməsidir, dəyərin ölçülməsi deyil
- Ekspert belə suala normativ modelləşdirmə ilə cavab verə bilər, lakin faktiki xərcin çəkildiyini təsdiq etmir
- Suala cavab verilə bilmirsə bu, rəydə əsaslandırılmış imtina kimi göstərilir
- Sual qeyri-müəyyəndirsə dəqiqləşdirmə üçün məhkəməyə sorğu göndərilir

**Üç sual, üç fərqli kəmiyyət. Onlar bir-birindən çıxarıla və ya toplanıla bilməz. Bu izah rəydə mütləq yer almalıdır.**

# Nümunə. Üç sualın ayrılması

| Sual | Xarakteri | Cavabın forması | Ehtiyat |
|---|---|---|---|
| Aqrotexniki xərclər nə qədərdir? | Keçmiş xərcin müəyyən edilməsi | Normativ model | Faktiki xərc təsdiq edilmir |
| Boş torpağın dəyəri? | Dəyərin hesablanması | Müqayisə yanaşması | Xüsusi ehtimal - torpaq faktiki boş deyil |
| Torpaq və ağaclar birlikdə? | Dəyərin hesablanması | Gəlir yanaşması | Bütöv obyekt |

Əkmələrin dəyəri = 3-cü sual − 2-ci sual. Bu fərq rəydə ayrica göstərilir, lakin dördüncü nəticə kimi təqdim edilmir.

III

# Səlahiyyət, imtina və maraqlar münaqişəsi

Rəy yazılmazdan əvvəl həll edilməli məsələlər

# İmtina üçün əsaslar, yoxlama siyahısı

| № | Hal | Nəticə |
|---|---|---|
| 1 | Obyektin növü ixtisas şəhadətnaməsinin istiqamətinə uyğun deyil | İmtina |
| 2 | Tərəflərdən biri ilə əmək, kommersiya və ya qohumluq əlaqəsi | İmtina |
| 3 | Eyni obyekt üzrə əvvəllər tərəflərdən birinə xidmət göstərilib | Açiqlama + imtina |
| 4 | Sual ekspertin səlahiyyətindən kənardır (hüquqi qiymətləndirmə) | Qismən imtina |
| 5 | Təqdim edilmiş material rəy vermək üçün kifayət etmir | Sorğu, sonra imtina |
| 6 | Ekspertizanın müddəti obyektiv olaraq kifayət etmir | Uzadilma vəsatəti |

**İmtina zəiflik deyil. Səlahiyyətdən kənar rəy vermək CM 297 riski daşıyır. İmtina yazılı və əsaslandırılmış olmalıdır.**

# Maraqlar münaqişəsinin yoxlanması

## YOXLANILIR

- Tərəflərin hüquqi şəxs adları və VÖEN
- Fiziki şəxslərin adları
- Nümayəndə və ya vəkillərin adları
- Təşkilatın bütün əməkdaşları üzrə
- Son üç ilin sifariş bazası
- Kredit və maliyyə əlaqələri

## SƏNƏDLƏŞDİRİLİR

- Yoxlamanın tarixi
- Yoxlanılan siyahı
- Nəticə - münaqişə yoxdur / var
- İmza
- İş sənədlərində saxlanılır
- Rəydə bəyanat kimi əks olunur

Yoxlama sənədləşdirilməlidir. «Münaqişə yoxdur» bəyanatı yoxlamanın aparıldığını sübut etmir.

# IV

# Məhkəməyə vəsatət və sorğu

**Ekspertin ən az istifadə etdiyi, ən güclü aləti**

# Nə üçün sorğu göndərilir

- Qərardadlar praktikada obyektin fiziki və hüquqi vəziyyətini tam təsvir etmir
- Ekspert çatışmayan məlumatı tərəflərdən birbaşa ala bilməz, yalnız məhkəmə vasitəsilə
- Qərardadda «digər məsələlərin aydınlaşdırılması ekspertlərin öhdəsinə buraxılsın» ifadəsi varsa, bu, sorğu hüququ verir
- Sorğu göndərilməməsi sonradan rəyin əsassızlığı arqumentinə çevrilir
- Sorğu və cavab iş materiallarına daxil olur, ekspertin lazımi səy göstərdiyinin sübutudur

**Qayda: məlumat çatışmırsa, iki yol var, sorğu göndərmək və ya xüsusi ehtimal qoymaq. Üçüncü yol, məlumatı özündən uydurmaq yolverilməzdir.**

# Sorğunun tərkibi

| Blok | Məzmun |
|---|---|
| A. Sənədlər | Çıxarış, texniki pasport, plan, əvvəlki qiymətləndirmələr, mühasibat sənədləri |
| B. Baxışın təşkili | Tarix, tərəflərin iştirakının təmini, obyektə çıxışın təmin edilməsi |
| C. Sualın dəqiqləşdirilməsi | Qiymətləndirmə tarixi, obyektin sərhədləri, qeyri-müəyyən ifadələr |
| D. Üçüncü şəxslərdən məlumat | Dövlət orqanları, reyestr, subsidiya sistemi |
| E. Müddət | Uzadılma zərurəti və əsası |

Sorğu məhkəməyə ünvanlanır, tərəfə deyil. Tərəflə birbaşa əlaqə müstəqilliyin pozulması kimi qiymətləndirilir.

# Baxışın təşkili barədə vəsatət, nümunəvi mətn

Ekspertiza obyektə baxış olmadan tamamlana bilməz. Məhkəmədən aşağıdakıların təmin edilməsi xahiş olunur:

1. Obyektə baxışın tarixinin müəyyən edilməsi;
2. Tərəflərin baxişda iştirakinin təmin edilməsi;
3. Obyektə maneəsiz çıxışın təmin edilməsi;
4. Baxış zamanı ölçmə işlərinin aparılmasına icazə;
5. Sahənin sərhədlərinin naturada göstərilməsi;
6. Fotofiksasiyanın aparılmasına icazə;
7. Baxış aktının tərəflər tərəfindən imzalanması.

**İkinci bənd həlledicidir. Tərəflərin iştirakı olmadan aparılan baxış sonradan mübahisələndirilir.**

V

# Obyektə baxış

Tərəflərin iştirakı ilə, prosedur qayda

# Baxışın üç qaydası

## TƏRƏFLƏR DƏVƏT EDİLİR

1

Dəvət məhkəmə vasitəsilə və ya məhkəmənin təsdiqi ilə. Tərəf gəlmirsə bu, aktda qeyd edilir və baxış davam edir.

2

## ÖLÇMƏ APARILIR

Sənəddəki ölçülər yoxlanılır. Uyğunsuzluq aşkarlandıqda hər iki göstərici aktda əks olunur.

3

## AKT YERİNDƏ TƏRTİB EDİLİR

Sonradan ofisdə tərtib edilən akt sübut gücünü itirir.

# Baxışdan əvvəl hazırlıq

## SƏNƏDLƏR

- Qərardadın surəti
- Çıxarış və texniki pasport
- Baş plan və eksplikasiya
- Baxış aktının blankı
- Ekspertin şəxsiyyət və şəhadətnamə sənədi

## AVADANLIQ

- Lentli ruletka və lazer ölçən
- Foto aparat və ya telefon (GPS-li)
- Kompas və ya GPS cihazı
- Çertyoj bloknotu
- Nümunə götürmə vasitələri (aqrar işlərdə)

Fotoşəkillərdə tarix və koordinat olmalidir. Bu, baxışın həqiqətən aparıldığının sübutudur.

# Baxış zamanı müəyyən edilən göstəricilər

| Obyekt növü | Müəyyən edilir |
|---|---|
| Bina və tikili | Ölçülər, mərtəbəlilik, konstruktiv həll, tikinti materialı, təmirlilik, qüsurlar, kommunikasiya |
| Torpaq sahəsi | Sərhədlər, sahə, relyef, təyinat üzrə faktiki istifadə, çıxış yolu, yüklülük əlamətləri |
| Bağ və əkmələr | Ağacların sayi (faktiki sayılır), növ, yaş, sıxlıq, vəziyyət, məhsuldarlıq əlamətləri |
| Avadanlıq | İdentifikasiya nömrələri, buraxılış ili, iş vəziyyəti, komplektlik |

**Ağac sayı qərardaddan köçürülmür, faktiki sayılır. Fərq varsa, hər iki rəqəm aktda göstərilir.**

# VI

# Baxış aktı

Ekspertizanın ən çox mübahisələndirilən sənədi

# Baxış aktının məcburi rekvizitləri

| № | Rekvizit |
|---|---|
| 1 | Aktın nömrəsi, tərtib tarixi və yeri (obyektin ünvanı) |
| 2 | İşin nömrəsi və qərardadın rekvizitləri |
| 3 | Ekspertin adı, vəzifəsi, ixtisas şəhadətnaməsinin nömrəsi |
| 4 | İştirak edən şəxslər ad, soyad, statusu (tərəf, nümayəndə, üçüncü şəxs) |
| 5 | Dəvət edilmiş, lakin iştirak etməyən tərəflər və dəvətin qaydası |
| 6 | Baxışın başlanma və bitmə vaxtı |
| 7 | Hava şəraiti və baxışa təsir edən hallar |
| 8 | Obyektin faktiki vəziyyətinin təsviri |
| 9 | Aparılmış ölçmələr və nəticələri |
| 10 | Sənəddəki göstəricilərlə faktiki göstəricilər arasındakı fərqlər |
| 11 | Fotoşəkillərin sayı və çəkiliş qaydası |
| 12 | İştirakçıların qeydləri və etirazları |
| 13 | İmzalar, ekspert və bütün iştirakçılar |

# İki kritik bənd

## 12-Cİ BƏND, ETİRAZLAR

- Tərəfin bildirdiyi hər qeyd aktda əks olunur
- Ekspert etirazı qiymətləndirmir, yazir
- Etirazın əsaslı olub-olmaması rəydə təhlil edilir
- Etirazın yazılmaması aktın etibarını zəiflədir
- Tərəf imzadan imtina edərsə bu da yazılır

## 13-CÜ BƏND, İMZALAR

- Hər iştirakçı imzalayır
- İmzadan imtina aktda qeyd edilir və səbəbi yazılır
- İmtina aktı etibarsız etmir
- Aktın surəti iştirakçılara təqdim edilir
- Təqdim edilmə faktı aktda qeyd olunur

**Tərəf imzalamaqdan imtina edərsə akt etibarsız olmur. Etibarsız edən odur ki, imtina faktı yazılmasın.**

# Aktın tipik qüsurları

| Qüsur | Nəticəsi |
|---|---|
| Akt sonradan ofisdə tərtib edilib | Sübut gücü itir, mübahisələndirilir |
| Tərəflər dəvət edilməyib | Rəy etibarsız sayıla bilər |
| İştirakçıların siyahısı yoxdur | Baxışın həqiqiliyi şübhə altına düşür |
| Ölçmə aparılmayıb, sənəd göstəriciləri köçürülüb | Ekspertizanın əsas funksiyası yerinə yetirilməyib |
| Fotoşəkillərdə tarix yoxdur | Baxışın tarixi təsdiqlənmir |
| Etirazlar yazılmayıb | Tərəf sonradan «etiraz etmişdim» arqumentini irəli sürür |
| Akt rəyə əlavə edilməyib | Rəy əsassız sayılır |

# VII

# Metodologiyanın seçimi

## Adi qiymətləndirmədən fərqlər

# Məhkəmə işində metodoloji tələblər çoxdur

| Element | Adi hesabat | Məhkəmə rəyi |
|---|---|---|
| Analoqların sayı | Metodologiya üzrə minimum | Minimum + kənarlaşdırılanların siyahısı |
| Mənbələr | Göstərilir | Göstərilir + ekran görüntüsü arxivi |
| Düzəlişlər | Faizlə | Faiz + hesablanma üsulu + mənbə |
| Yanaşmadan imtina | Əsaslandırılır | Konkret faktla əsaslandırılır |
| Çəkilər | Əsaslandırılır | Kəmiyyətlə əsaslandırılır |
| Qeyri-müəyyənlik | Diapazon | Diapazon + həssaslıq təhlili |
| Xüsusi ehtimallar | Göstərilir | Göstərilir + ehtimalsız nəticə |

**Səbəb: adi hesabatı auditor və ya bank yoxlayır. Məhkəmə rəyini qarşı tərəfin mütəxəssisi yoxlayır və hər zəif nöqtəni axtarır.**

# İkiqat hesablamanın qarşısının alınması

- Torpaq və onun üzərindəki obyektlər qiymətləndirilərkən torpağın dəyəri hesablamada bir dəfə iştirak edir
- Bütöv obyektin dəyəri müəyyən edildikdə torpaq onun tərkibindədir, ayrıca əlavə edilmir
- Ayrı-ayrı komponentlər ölçüldükdə hər biri ayrıca göstərilir, sonra cəmlənir
- İki üsulun qarışdırılması ekspertizada ən çox aşkarlanan hesablama səhvidir
- Rəydə hansı üsulun seçildiyi açıq göstərilir

Nümunə: «Boş torpaq 20 400» və «torpaq + ağaclar 42 200». Əkmələrin töhfəsi 21 800-dür. Üç rəqəm cəmlənmir 84 400 nəticəsi Səhvdir.

# VIII

# Rəyin strukturu və formatı

Məhkəmənin gözlədiyi sənəd

# Rəyin məcburi bölmələri

| № | Bölmə | Qeyd |
|---|---|---|
| 1 | Titul «Ekspert rəyi», iş nömrəsi, qərardad rekvizitləri | «Hesabat» sözü işlədilmir |
| 2 | CM 297 üzrə xəbərdarlıq və ekspertin imzasi | Birinci səhifədə |
| 3 | Ekspert haqqında məlumat ixtisas, şəhadətnamə, stac | Şəhadətnamənin surəti əlavə edilir |
| 4 | Məhkəmənin suallari, hərfi mətn | Dəyişdirilmədən köçürülür |
| 5 | Ekspertin səlahiyyət hüdudu, nəyi müəyyən edir / etmir | Ayrıca bölmə |
| 6 | İstifadə edilmiş material və sənədlərin siyahısı | Mənbə və tarixlə |
| 7 | Baxış barədə məlumat və baxış aktına istinad | Akt əlavə edilir |
| 8 | Tədqiqat hissəsi, hər sual üzrə ayrıca | Metodologiya + hesablama |
| 9 | Xüsusi ehtimallar və məhdudiyyətlər | Ehtimalsız nəticə də göstərilir |
| 10 | Suallara cavablar, sual formasında | Hər sual ayrıca nömrələnir |
| 11 | Nəticələrin qarşılıqlı əlaqəsi | Cəmlənmə qadağası izah edilir |
| 12 | Əlavələr: akt, foto, sənəd surətləri, mənbələr | Nömrələnmiş siyahı |

# 10-cu bölmə. Cavabların formatı

**SUAL 1.** «Qusar rayonu, Qarat-oba kəndində yerləşən 1,36 ha torpaq sahəsindəki bağ əkmələrinə 2008-ci ildən bu günədək aqrotexniki qulluq üçün çəkilmiş xərclər nə qədər təşkil edir?»

**CAVAB.** Göstərilən sayda və növdə ağacların 2008–2026-cı illərdə aqrotexniki qaydalara uyğun becərilməsi üçün normativ olaraq tələb olunan xərclər nominal ifadədə 23 528 (iyirmi üç min beş yüz iyirmi səkkiz) manat təşkil edir.

**QEYD.** Ekspert xərclərin faktiki olaraq çəkildiyini təsdiq etmir. İlkin mühasibat sənədləri təqdim edilmədiyi üçün hesablama normativ modelləşdirmə yolu ilə aparılmışdır. Faktiki xərcin müəyyən edilməsi ilkin sənədlərin təqdim edilməsini tələb edir.

**Üç element: sualın hərfi mətni, birmənalı cavab və cavabın hüdudu. Üçü də olmalıdır.**

# Səlahiyyət hüdudu bölməsi, nümunə

**EKSPERT MÜƏYYƏN EDİR**

- Torpaq sahəsinin boş vəziyyətdə bazar dəyərini
- Torpağın əkmələrlə birlikdə bazar dəyərini
- Normativ aqrotexniki xərclərin kəmiyyətini
- Hesablama üsulunu və giriş məlumatlarının mənbələrini

**EKSPERT MÜƏYYƏN ETMİR**

- Xərclərin faktiki çəkildiyini
- Tərəflər arasındakı hüquqi münasibətləri
- Mülkiyyət hüququnun etibarlılığını
- Zərərin kimin üzərinə düşdüyünü
- Hansı qiymət səviyyəsinin tətbiq ediləcəyini - bu, hüquqi məsələdir

**Bu bölmə müdafiənin əsasıdır. Məhkəmədə «siz bunu niyə müəyyən etməmisiniz?» sualına cavab burada hazırlanır.**

IX

# Məhkəməyə təqdimat

Sənəd axını və müddətlər

# Təqdimat qaydası

| Addım | Məzmun |
|---|---|
| 1 | Rəy ekspert tərəfindən imzalanır və möhürlə təsdiqlənir |
| 2 | Əlavələr nömrələnir və rəyin tərkibinə daxil edilir |
| 3 | Müşayiət məktubu tərtib edilir, iş nömrəsi, qərardad, əlavələrin siyahısı |
| 4 | Rəy məhkəməyə təqdim edilir, tərəflərə deyil |
| 5 | Təqdim edilmə faktı qeydiyyatdan keçirilir (daxilolma nömrəsi) |
| 6 | İş sənədləri ekspertdə saxlanılır, ən azı beş il |
| 7 | Xidmət haqqı barədə məlumat ayrıca məktubla verilir |

**Rəyin surəti tərəflərə ekspert tərəfindən verilmir. Tərəflər rəylə məhkəmə vasitəsilə tanış olur.**

# Müşayiət məktubunun tərkibi

- Ünvan, məhkəmənin adı və kollegiya
- İşin nömrəsi və qərardadın tarixi
- Rəyin nömrəsi, tarixi və səhifə sayı
- Əlavələrin nömrələnmiş siyahisi, hər əlavənin adı və vərəq sayı
- Xidmət haqqının məbləği (ayrıca məktubla verilə bilər)
- İmza, möhür və tarix

Əlavələrin siyahisi dəqiq olmalidir. Siyahıda göstərilən, lakin faktiki təqdim edilməyən sənəd rəyin natamamlığı kimi qiymətləndirilir.

X

# Məhkəmədə rəyin müdafiəsi

## Ekspertin dinlənilməsi, hazırlıq və davranış

# Ekspert nə vaxt məhkəməyə çağırılır

- Tərəflərdən biri rəyə etiraz bildirdikdə
- Rəydə ziddiyyət və ya qeyri-müəyyənlik aşkarlandıqda
- Məhkəmə rəyin ayrı-ayrı müddəalarının izahını tələb etdikdə
- Əlavə və ya təkrar ekspertiza məsələsi müzakirə edildikdə
- Tərəf öz mütəxəssisinin rəyini təqdim etdikdə

**Çağiriş şübhə əlaməti deyil. Mürəkkəb işlərdə ekspertin dinlənilməsi adi prosedurdur. Hazırlıqsız gəlmək isə problemdir.**

# Dinlənilməyə hazırlıq

## YENİDƏN OXUNUR

- Qərardad və sualların dəqiq mətni
- Öz rəyiniz tam, o cümlədən əlavələr
- Baxış aktı və fotoşəkillər
- Bütün hesablamalar və mənbələr
- Tərəfin etiraz sənədi (varsa)

## ƏVVƏLCƏDƏN HAZIRLANIR

- Hər sual üzrə metodun seçimi səbəbi
- Hər düzəlişin hesablanma qaydası
- İmtina edilmiş yanaşmaların əsası
- Xüsusi ehtimalların siyahısı
- Məhdudiyyətlərin siyahısı və onların nəticəyə təsiri

**Ən çox verilən sual: «Bu rəqəmi haradan almısınız?» Cavab hesabatın hansı səhifəsində olduğunu göstərməklə başlamalıdır.**

# Dinlənilmədə davranış qaydaları

| № | Qayda |
|---|---|
| 1 | Yalnız öz rəyinizin çərçivəsində cavab verin, kənar mülahizə bildirməyin |
| 2 | Bilmədiyiniz sualda «bu, mənim səlahiyyətimdən kənardır» deyin |
| 3 | Hesablama ilə bağlı suala rəydəki səhifə və cədvələ istinadla cavab verin |
| 4 | Tərəfin arqumenti əsaslıdırsa, bunu etiraf edin. Bu, rəyin çökməsi demək deyil |
| 5 | Nəticəni məhkəmə zalında dəyişməyin, dəyişiklik yazılı əlavə rəylə rəsmiləşdirilir |
| 6 | Tərəflərlə polemikaya girməyin, cavab məhkəməyə ünvanlanır |
| 7 | Emosional qiymətləndirmə verməyin, yalnız fakt və metod |
| 8 | Sual anlaşılmazdırsa, dəqiqləşdirmə xahiş edin |

# Ən çətin dörd sual, hazır cavab sxemi

| Sual | Cavabın quruluşu |
|---|---|
| «Nə üçün bu metodu seçdiniz?» | Obyektin xüsusiyyəti, digər metodların tətbiq olunmama səbəbi və seçilən metodun üstünlüyü |
| «Analoqlar niyə başqa rayondandır?» | Öz rayonunda araşdırma aparılıb - nəticə - düzəliş mexanizmi - düzəlişin kəmiyyəti |
| «Bu düzəliş faizi haradan gəlir?» | Mənbə - hesablanma üsulu - rəydəki səhifə - həssaslığı |
| «Nəticəniz bazar qiymətindən fərqlidir» | Hansı bazar qiyməti ilə müqayisə edilir - seqment fərqi - tarix fərqi - əgər fərq əsaslıdırsa etiraf |

**Dördüncü sətir ən vacibdir. Əsaslı iradı qəbul etmək ekspertin peşəkarlığının göstəricisidir, inadkarlıq isə rəyin bütövlükdə etibarını itirir.**

XI

# Əlavə və təkrar ekspertiza

Nə vaxt təyin edilir, ekspert nə edir

# İki fərqli yanaşma

## ƏLAVƏ EKSPERTİZA

- Rəy natamam və ya aydın deyil
- Yeni suallar yaranıb
- Adətən eyni ekspertə tapşırılır
- Əvvəlki rəy qüvvədə qalır
- Yeni rəy əvvəlkini tamamlayır

## TƏKRAR EKSPERTİZA

- Rəyin əsaslılığı şübhə doğurur
- Rəydə ziddiyyət var
- Başqa ekspertə tapşırılır
- Əvvəlki rəyin taleyi məhkəmə tərəfindən həll edilir
- Yeni rəy müstəqil hazırlanır

**Təkrar ekspertizanin təyin edilməsi ekspertin səhvinin təsdiqi deyil. Lakin onun səbəbləri təhlil edilməli və gələcək işlərdə nəzərə alınmalıdır.**

# Təkrar ekspertizanın ən çox rast gəlinən beş səbəbi

| № | Səbəb | Qarşısının alınması |
|---|---|---|
| 1 | Baxış aparılmayıb və ya tərəflər dəvət edilməyib | V–VI modullar |
| 2 | Suallardan biri cavabsız qalıb | II modul - sualların təhlili |
| 3 | Hesablamanın mənbələri göstərilməyib | VII modul - sənədləşdirmə |
| 4 | Analoqların seçimi əsaslandırılmayıb | VII modul |
| 5 | Nəticələr bir-birinə zidddir və ya cəmlənib | VII modul - ikiqat hesablama |

**Beş səbəbin dördü prosedur və sənədləşdirmə ilə bağlidir, metodologiya ilə deyil.**

# XII

# Tipik səhvlər

## Bir qədər də real işlərdən - Palatanın yoxlama praktikası

# Prosedur səhvləri

| № | Səhv | Nəticə |
| --- | --- | --- |
| 1 | Rəy «hesabat» formasında tərtib edilib | Prosessual qüsur |
| 2 | CM 297 xəbərdarlığı və imza yoxdur | Prosessual qüsur |
| 3 | Məhkəmənin sualının mətni rəydə yoxdur | Cavabın suala uyğunluğu yoxlanıla bilmir |
| 4 | Suallardan biri cavabsız qalıb | Rəy natamamdır |
| 5 | «Sifarişçinin razılığı olmadan açıqlanmır» şərti saxlanılıb | Şablonun köçürülməsi |
| 6 | «Mülkiyyət hüquqları sifarişçi tərəfindən təsdiqlənir» | Məhkəmə belə təsdiq vermir |
| 7 | «Nəticə 6 ay qüvvədədir» | Məhkəmə rəyi üçün tətbiq edilmir |
| 8 | Baxış aparılmayıb və ya tərəflər dəvət edilməyib | Təkrar ekspertiza əsası |
| 9 | Ölçmə aparılmayıb, sənəd göstəriciləri köçürülüb | Ekspertizanın funksiyası yerinə yetirilməyib |
| 10 | Baxış aktı rəyə əlavə edilməyib | Rəy əsassız sayılır |

# Metodoloji səhvlər

| № | Səhv | Real işdən nümunə |
|---|---|---|
| 11 | Analoqlar başqa rayondan, düzəliş əsaslandırılmayıb | 5 analoq, 5 fərqli rayon |
| 12 | Mütləq düzəlişlərin cəmi hədləri kəskin aşır | 105 % – 141 % |
| 13 | Bir obyektin smetası bütün komplekseə şamil edilib | 100 m² smeta - 35 800 m² |
| 14 | Fərqli təyinatlı obyektlərə eyni vahid dəyər | Ticarət, anbar, transformator, eyni qiymət |
| 15 | Köhnəlmə əvəzetmə dəyərinin bir hissəsinə tətbiq edilib | Dəyərin 61,8 %-i köhnəlməsiz |
| 16 | Köhnəlmənin üç növü ayrılmayıb | Vahid faizlə verilib |
| 17 | Çəkilər «subyektiv rəy» ilə seçilib | Ən yüksək nəticəyə ən aşağı çəki |
| 18 | Yanaşmalar arasındakı fərq təhlil edilməyib | 32,5 % fərq izahsızdır |
| 19 | Kapitallaşdırma dərəcəsi əsaslandırılmayıb | 7,12 % hesablama və ya mənbə yoxdur |
| 20 | Nəticələr cəmlənib və ya bir-birindən çıxarılıb | İkiqat hesablama aparılıb |

# Sənədləşdirmə səhvləri

| № | Səhv |
|---|---|
| 21 | Rəqəm və sözlə yazılış uyğun gəlmir |
| 22 | Sahə göstəriciləri sənədlərdə fərqlidir |
| 23 | Tarixlərdə ziddiyyət il, müqavilə tarixi |
| 24 | Kənarlaşdırılmış analoqlar göstərilməyib |
| 25 | Mənbələrin ekran görüntüsü saxlanılmayıb |
| 26 | «Riyazi hesablamalar 1-3 % dəqiqlik riski ilə aparıla bilər» tipli müddəalar |
| 27 | Xüsusi ehtimallar ayrıca göstərilməyib |
| 28 | Ekspertin vermədiyi nəticələr barədə qeyd yoxdur |
| 29 | Cədvəl səhifələr arasında bölünüb, başlıq təkrarlanmayıb |
| 30 | Standartlara köhnə redaksiya ilə istinad |

# Üç prinsipial mövqe

**Birinci.** Ekspert faktı təsdiq etmir o, normativ və ya bazar əsaslı kəmiyyəti hesablayır. Bu fərq rəydə açıq göstərilir.

**İkinci.** Üç sualın cavabı üç fərqli kəmiyyətdir. Onlar cəmlənmir və bir-birindən çıxarılmır. Aralarındakı əlaqə ayrıca izah edilir.

**Üçüncü.** Məlumat çatışmırsa iki yol var, məhkəməyə sorğu və ya xüsusi ehtimal. Üçüncü yol yoxdur.

# Suallar

# Yekunda, otuz bəndlik yoxlama siyahısı

## RƏY TƏQDİM EDİLMƏZDƏN ƏVVƏL

- CM 297 xəbərdarlığı və imza var?
- Sualların hərfi mətni köçürülüb?
- Hər suala ayrıca cavab verilib?
- Səlahiyyət hüdudu göstərilib?
- Baxış aktı əlavə edilib?
- Tərəflərin iştirakı aktda əks olunub?
- Ölçmə nəticələri göstərilib?

## HESABLAMA ÜZRƏ

- Bütün mənbələr göstərilib?
- Kənarlaşdırılan analoqlar açıqlanıb?
- Düzəlişlərin üsulu izah edilib?
- Köhnəlmə tam dəyərə tətbiq edilib?
- İkiqat hesablama yoxlanılıb?
- Çəkilər əsaslandırılıb?
- Həssaslıq təhlili aparılıb?

Bu siyahi təlim materialinin əlavəsində tam şəkildə verilir. 30 bənd, mərhələlər üzrə.

# Yekun, otuz bəndlik yoxlama siyahısı

| № | Yoxlanılan | Modul |
|---|---|---|
| | A. HAZIRLIQ | |
| 1 | Qərardadın doqquz elementi təhlil edilib | II |
| 2 | Sualların xarakteri təsnif edilib | II |
| 3 | İxtisas şəhadətnaməsi obyektin növünə uyğundur | III |
| 4 | Maraqlar münaqişəsi yoxlaması aparılıb və sənədləşdirilib | III |
| 5 | İmtina əsasları yoxlanılıb | III |
| | B. SORĞU VƏ BAXIŞ | |
| 6 | Çatışmayan məlumat üzrə məhkəməyə sorğu göndərilib | IV |
| 7 | Sorğunun surəti iş sənədlərində saxlanılır | IV |
| 8 | Baxışın təşkili barədə vəsatət verilib | IV |
| 9 | Tərəflər baxışa dəvət edilib | V |
| 10 | Baxış obyektin yerində aparılıb | V |
| 11 | Ölçmə işləri aparılıb | V |
| 12 | Fotofiksasiya tarix və koordinatla aparılıb | V |
| | C. BAXIŞ AKTI | |
| 13 | Akt yerində tərtib edilib | VI |
| 14 | On üç rekvizitin hamısı var | VI |
| 15 | İştirakçıların siyahısı və statusu göstərilib | VI |
| 16 | İştirak etməyən tərəflər və dəvətin qaydası göstərilib | VI |
| 17 | Etirazlar hərfi ilə yazılıb | VI |
| 18 | İmzalar alınıb; imtina halı qeyd edilib | VI |
| 19 | Akt rəyə əlavə edilib | VI |
| | D. HESABLAMA | |
| 20 | Bütün mənbələr göstərilib və arxivləşdirilib | VII |
| 21 | Kənarlaşdırılan analoqlar və səbəbləri göstərilib | VII |
| 22 | Düzəlişlərin hesablanma üsulu izah edilib | VII |
| 23 | İkiqat hesablama yoxlanılıb | VII |
| 24 | Köhnəlmə tam dəyərə tətbiq edilib | VII |
| 25 | Çəkilər kəmiyyətlə əsaslandırılıb | VII |
| 26 | Həssaslıq təhlili aparılıb | VII |
| | E. RƏY | |
| 27 | CM 297 xəbərdarlığı və imza var | VIII |
| 28 | Sualların hərfi mətni köçürülüb; hər suala ayrıca cavab verilib | VIII |
| 29 | Səlahiyyət hüdudu bölməsi var | VIII |
| 30 | Xüsusi ehtimallar və ehtimalsız nəticə göstərilib | VIII |

# Son